**M.A.Yıldızsafer**

**UOT: 338.48; JEL: R59.**

# Türkiyə mehmanxanalarının və turizm sahəsinin səmərəliliyinin yüksəldilməsində beynəxalq iqtisadi əməkdaşlığın rolu

***Xülasə***

*Məqalədə Türkiyədə turizm xidmətlərində otellərinin təsərrüfat fəaliyyətinin əsas göstəriciləri və onların yaxşılaşdırılması yollarında beynəlxalq iqtisadi münasibətlərin yüksəldilməsinin əhəmiyyəti tədiq edilmişdir. Statistik məlumatlara əsasən dünya ölkələrində və Türkiyə Respublikasında otellərdə otaq başına düşən gəlirin səviyyəsi təhlil edilmiş, 2012-2016-cı illəri əhatə edən dövrlərdə ümumi bölgə və qitələr üzrə otellərdə otaq dolmaları araşdırılmışdır. Həmçinin, turizmdə ilk onluğa daxil olan ölkələrin otaq gəlirləri təhlil edilmiş və Türkiyədə mehmanxanaların turizm sahəsinin səmərəliliyin yüksəldilməsində beynəxalq iqtisadi əməkdaşlığın rolu dəyərləndirilmişdir.*

***Aşar sözlər:*** *gəlir, əməkdaşlıq, səmərəlilik, otel, turizm, sektor, maliyyə*

## Giriş

Dünya Səyahət və Turizm Şurasının məlumatına əsasən ölkədə turizm sektoru ÜDM-in 2,8 faizini və məşğulluğun isə 2,6 faizini təmin edir. Azərbaycanın böyük turizm resurslarının olması bu sahənin inkişaf potensialını göstərir. Azərbaycanın turizm sektorunun inkişafında Türkiyyə ilə əməkdaşlığın və bu sahədə mütərəqqi təcrübənin öyrənilməsinin rolu mühümdür. Son illərdə neft gəlirlərindən asılılığın azaldılması məqsədilə qeyri-neft sektorunun rəqabət qabiliyyətli, iqtisadi səmərəli və innovasiya əsaslı prioritet sahələrindən olan turizm sənayesində məqsədyönlü şəkildə həyata keçirilməkdədir. Bu tədbirlər ölkədə turizmin inkişafının sürətlənməsinə müsbət təsir göstərə bilər. Dünya təcrübəsində turizm sahəsində islahatların ən uğurlu modelləri və onların tətbiqi imkanlarının tədqiqi mütəmadi olaraq diqqət mərkəzində saxlanmalıdır.



### Turizm sektorunun makroiqtisadi göstəricilərə təsiri

Beynəlxalq təcrübə göstərir ki, hər bir ölkənin məhsul istehsalı potensialının, əhalinin gəlirlilik səviyyəsinin, məşğulluğunun yüksəldilməsində və iqtisadiyyatın digər sektorlarının inkişafında turizm sektorunun təsiri əhəmiyyətli dərəcədə müşahidə olunmaqdadır. Belə ki, statistik göstəricilərə əsasən, 2017-ci ildə turizm sektorunun dünya ÜDM-ində ümumi payı 9,8%, dünya üzrə məşğulluğunda isə 9,5% olmuşdur.

**Diaqram 1.**

**Turizmin dünya iqtisadiyyatına təsiri.(Nominal ÜDM milyard ABŞ dolları)**




Mənbə: Dünya Səyahət və Turizm Şurasının məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

©M.A.Yıldızsafer Azərbaycan Turizm və Menecment Universiteti, dissertant. E-Mail: murat.yildizsafer@divan.com
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Turizm sektoru iqtisadiyyatın sürətlə inkişaf edən sahəsi olmaqla dəyişən demoqrafik göstəricilərə və coğrafiyaya malikdir. Turizm sektoru iqtisadiyyatın ən həssas sahəsi olmaqla dünyanı bürüyən qlobal iqtisadi böhranların təsirinə birbaşa məruz qalmasına baxmayaraq, 2009-cu ildən başlayaraq böhranın təsirindən çıxmaqla yenidən dinamik inkişaf yoluna qədəm qoymuşdur. Bu inkişafın əsasını təşkil edən ən mühüm amillərdən biri ABŞ, Yaponiya və Avropanın bir çox inkişaf etmiş ölkələrində müşahidə olunan iqtisadi inkişaf hesabına həmin ölkələrdən gələn turistlərin və onların gəlirlilik səviyyəsinin artmasıdır. Həmçinin əhalinin orta təbəqəsinin genişlənməsi, digər tərəfdən dövlətlərin turizmin inkişafına yönəldilən dəstəyi nəticəsində Asiya və Latın Amerikası ölkələrində də turizm sektorunun inkişafı, hava nəqliyyatı xidmətlərinin mövcudluğu bu sektordakı artımın əsas təkanverici amilləri kimi çıxış edir [4].

**Diaqaram 2.**

**Turizm sektorunda məşğulluq səviyyəsinin ümumi məşğulluqda payı (%)**




Mənbə: Dünya Səyahət və Turizm Şurasının məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.



**Beynəlxalq təcrübə turizmin inkiafı**

Birləşmiş Millətlər və Dünya Turizm Təşkilatının məlumatlarına əsasən 2017-ci ildə dünya üzrə turizm gəlirləri 3,6%, türistlərin sayı isə 4,4% artmışdır. Bu artım dünya ticarətində turizmin inkişaf etməsi deməkdir. Belə ki, 2017-ci ildə dünya ixracatında turizmi 7% paya malik olmaqla xidmət ixracatını 30%-ə çatdırmışdır. Həmin ildə turistlərin sayı 1184 milyon insan olmaqla mehmanxana, yemək-içmək,əyləncə, alış-veriş və digər xidmətlərə görə turist ödənişləri 1232milyard ABŞ Dolları olmuşdur [3]. Qeyq etmək lazımdır ki, qünya çarpında ixracat koteqoriyası üzrə turizm sektoru benzin və kimyəvi madələrdən sonra üçüncü sırada yer almaqla qida və avtomatlaşdırılmış sənaye sahələrindən öndə dayanır. 2015-ci ildə valyuta kurslarında baş vrən gözlənilməyən dəyişikliklər qitələrə fərqli nisbətlərdə təsir etmişdir. Valyuta dalğalanmaları və infilyasiya rəqəmlərinə nəzər salsaq görərik ki, Amerika, Asiya Sakit Okean hövzəsi və Orta Şərq ölkələrində 4% artım olarkən, Avropa qitəsində 3%, Afrika qitəsində isə 2% artım olmuşdur. Həmin ildə Amerika qitəsinə gələn turistlərin sayında və gəlirlərində artım davam etmiş, Karib adaları, Mərkəzi amerika və Cənubi Amerika turizm gəlirlərində 7% itgi verərək Şimali Amerika 3%-lik artım əldə etmişdir. Həm gəlir, həm də turist sayı baxımından turizm sənayesində ən yaxşı turizm onluqlarına Amerika (178 milyard ABŞ dolları), Çin (114 milyard ABŞ dolları), İspaniya (57 milyard ABŞ dolları) və Fransa (46 milyard ABŞ dolları) dövlətləri daxil edilmişdir. Əsasən Çin 2004-cü ildən hazırkı dövrədək iki istiqamətli inkişafını davam etdirməkdədir. 2015-ci ildə Çinli turistlərin xərcləmələri 25% artaraq 292 milyard ABŞ dollarına çatmışdır. Turist xərcləmələrinə görə Amerika 9% artımala 120 milyard ABŞ dolları olmaqla ikinci sırada qərarlaşmışdır[6]. Birləşmiş Millətlər Dünya Turizm Təşkilatı 2016-cı ildə də turizm gösəricilərində müsbət dəyişikliklə nümayiş etdirərək, beynəlxalq turistlərin sayında 4% artım

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

əldə etmişdir. 2016-cı ilin sonunda turistlərin sayında ən böyük artım Asiya və Sakit Okean bölgəsində (4,5%), Amerika qitəsində (5%), Avropa qitəsində (4,2%) və Orta Şərq (2-5%) ölkələrində olmuşdur [5]. 2016-cı ildə turist yatırımları 2015-ci illə müqayisədə 4,7%, o cümlədan daxili turizm 3,3%, xarici turizm isə 3%-lik artımla müşahidə edilmişdir. 2016-2018-cı illərdə amerika dollarının qüvvətlənməsi nəticəsində səyahət trendlərinin azalması davam etməkdədir. Bütün bunlar sonrakı 10 il ərzində səyahət və turizm sənayesinin 4%-lik həddə böyüməsinin proqnozlaşdırılmasının gözlənilməsinə istiqamətlənməkdədir. Proqnozlara görə müəyyən edilmişdir ki, 2026-cı ilədək səyahət və turizm sənayesinin inkişafı dünyada 370 milyon yeni iş yerlərinin açılması ilə nəticələnəcəkdir. Bu isə turizmdə məşğulluğun artması hesabına mehmanxana və mehmanxana tipli müəssisələrin yükləmə və yaxud mehmanxananın yüklülük səviyyəsini artırmaqla, bu sektorda otellərin sayının artması və otelçilik xidmətlərinin inkişaf etdirilməsi ilə nətələnəcəkdir. Təbii ki, turizm sektorunda otellərin sayının artması otaq fondunun inkişafına təsir edərək, mehmanxana və mehmanxana tipli müəssisələrin əsas göstəricilərina daxil olan Room Revenue (mehmanxana və mehmanxana tipli müəssisələrin otaq üzrə gəliri) göstəricisinin, yəni bir otaq fondunun satışından əldə olunan gəlirin artımını şərtləndirəcəkdir. Otellərin yüklülük səviyyəsi əsasən otaqların doluluğu ilə müəyyən edilir. Aşağıdakı cədvəldə 2012-2016-cı illər arasında dünya üzrə bölgələr və qitələr arasında otaq doluluqları göstərilmişdir [10].

**Cədvəl 1.**

**2012-2016-cı illəri əhatə edən dövrlərdə ümumi bölgələr və qitələr üzrə otaq dolmaları (%)**

| Aylar | Ölkələr | | | |
|---|---|---|---|---|
| | Asya –Sakit okean ölkələri | Amerika | Avropa | Orta Şərq və Afrika ölkələri |
| Yanvar 12 | 60.5 | 49.7 | 51 | 55.3 |
| Fevral 12 | 68 | 57.7 | 57.7 | 62.4 |
| Mart 12 | 70.7 | 63.5 | 63.4 | 64.7 |
| Aprel 12 | 68.9 | 61.7 | 65.5 | 63.5 |
| May 12 | 66.7 | 63.3 | 70.2 | 60.2 |
| İyun 12 | 67.3 | 69.8 | 73.1 | 58.3 |
| İyul12 | 69.4 | 69.8 | 71.8 | 56.6 |
| Avqust12 | 69.8 | 67.8 | 71.1 | 54.1 |
| Sentyabr12 | 68 | 63.3 | 76.3 | 60.7 |
| Oktyabr 12 | 70.3 | 64.1 | 71.1 | 65.4 |
| Noyabr 12 | 71.6 | 56.9 | 64.8 | 65.7 |
| Dekabr12 | 66.3 | 49.2 | 54.5 | 57.7 |
| Yanvar 13 | 64.4 | 51.3 | 51.2 | 60 |
| Fevral 13 | 62.5 | 58.8 | 59.2 | 66.4 |
| Mart 13 | 70 | 63.7 | 63.8 | 67.1 |
| Aprel 13 | 68.6 | 63.8 | 67.3 | 65.7 |
| May 13 | 65.9 | 64 | 72 | 62.7 |
| İyun 13 | 67.1 | 69.6 | 75.3 | 61.8 |
| İyul13 | 69.6 | 71 | 73.5 | 49 |
| Avqust13 | 71.8 | 69.3 | 74.2 | 56.1 |
| Sentyabr13 | 68.5 | 63.5 | 77.1 | 58.1 |
| Oktyabr 13 | 72.5 | 64.7 | 73.2 | 63.1 |
| Noyabr 13 | 72.4 | 58 | 67.3 | 64.6 |



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

| | | | | |
|---|---|---|---|---|
| Dekabr13 | 66.3 | 50.5 | 56.5 | 59.6 |
| Yanvar 14 | 62.1 | 52.5 | 52.8 | 62 |
| Fevral 14 | 67.1 | 60.6 | 60.8 | 67.4 |
| Mart 14 | 69.2 | 65.2 | 64.9 | 66.9 |
| Aprel 14 | 68.8 | 65.4 | 68.3 | 67 |
| May 14 | 67.6 | 66.9 | 74 | 63.5 |
| İyun 14 | 66.4 | 71.2 | 75.1 | 61.3 |
| İyul14 | 70 | 73.2 | 73.9 | 49.3 |
| Avqust14 | 72.6 | 71.6 | 75.7 | 64.3 |
| Sentyabr14 | 69.2 | 65.7 | 79.4 | 65.5 |
| Oktyabr 14 | 72 | 67.7 | 74.7 | 67.6 |
| Noyabr 14 | 72.2 | 59.3 | 68.2 | 67.4 |
| Dekabr14 | 67 | 52.7 | 59.3 | 61.9 |
| Yanvar 15 | 64.7 | 54.5 | 54.4 | 62.8 |
| Fevral 15 | 64.6 | 62.3 | 62.6 | 67.2 |
| Mart 15 | 68.7 | 66.6 | 66.5 | 68.7 |
| Aprel 15 | 69.6 | 66.5 | 69.5 | 66.2 |
| May 15 | 68.1 | 67.1 | 74.1 | 65.1 |
| İyun 15 | 66.2 | 72.6 | 78.1 | 56.1 |
| İyul15 | 70.7 | 74.8 | 77.3 | 55.1 |
| Avqust15 | 72.7 | 70.6 | 77.1 | 62.9 |
| Sentyabr15 | 68.1 | 67.6 | 80.7 | 64.9 |
| Oktyabr 15 | 71.1 | 68.5 | 76.1 | 65.1 |
| Noyabr15 | 70.4 | 59.7 | 68.1 | 64.6 |
| Dekabr15 | 67.4 | 53 | 59.1 | 60.4 |
| Yanvar16 | 66.1 | 54 | 54.7 | 60.6 |
| Fevral16 | 64.2 | 61.5 | 63.1 | 64.2 |
| Mart 16 | 69.6 | 65.9 | 66.2 | 67.3 |
| Aprel 16 | 70.5 | 67.5 | 71.4 | 64.5 |
| May 16 | 67.6 | 66.4 | 73.4 | 63.7 |

Mənbə: STR Global: ErişimTarihi: 01.07.2016



Dünyanı bürüyən qlobal maliiyə böhranları hesabına iqtisadi sıxıntılar hesabına dünya miqyasında otelçilik fəaliyyəti və otaq başına əldə edilən gəlirlərdə dəyişikliklər yaşanmış və Avropanın bəzi şəhərlərində yeni rekordlar əldə edilmişdir. Bu baxımdan 2016-cı ildə otaqların günlük orta qiymətləri Dublin, Lizbon, Porto, Barselona və Madriddə artmaqda davam etmişdir. 2017-ci ildə də otaq başına ən çox gəlirlər Dublin, Lizbon, Porto və Barselonada müşahidə edilmişdir. Həmin dövrdə Milan, Moskova, Madrid və Türkiyə də bu ölkələrlə müqayisədə onlara yaxın göstərici əldə etmişdir [7]. Bütün bunlar aşağıdakı cədvəl məlumatlarında əks etdirilmişdir. Aşagıdakı cədvəldə otellərdə otaq başına düşən gəlirdə ilk onluğa düşən ölkələrin payı göstərilmişdir.

**Cədvəl 2.**

**Bəzi ölkələrin otaq başına gəlirdə payı (%)**

| 2016 | | 2017 | |
|---|---|---|---|
| **Ölkələr** | **Otaq başına gəlirdə payı (%)** | **Ölkələr** | **Otaq başına gəlirdə payı (%)** |
| Roma | 19.2 | Berlin | 8,2 |
| Dublin | 9.1 | Lissabon | 6,9 |
| Praqa | 6.6 | Türkiyə | 5,8 |
| Madrid | 5.8 | Barselona | 5,5 |
| Lissabon | 5.7 | Praqa | 4,9 |
| Türkiyə | 4.5 | Milan | 4,1 |
| Moskova | 4 | Moskova | 3,9 |
| Barselona | 3.3 | Madrid | 3,8 |
| Berlin | 3.1 | Frankfurt | 2,9 |
| Amstredam | 2.5 | Edinburg | 2.8 |

Mənbə: Pwc, Staying Power European Cities Hotel Forecast for 2016 and 2017, March 2016.

Avropa şəhərlərinin 2015-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrində otaqların doluluq səviyəsinə nzər salsaq görərik ki, London, Dublin, Edinburg, Amsterdam ve Paris kimi şəhərlərdən ilk 4 şəhərin eyni olacağı, 5 şəhərin isə Paris əvəzinə Roma şəhəri olmasını müəyyən etmək olar. 2017-ci ildə isə otaqların doluluq səviyyəsininaşağı olması səbəbindən ilk 3 şəhərin London, Edinburg ve Dublin olması qaçılmazdır. Otaq başına ədə edilən gəlirlərin həcmi də ölkələr üzrə 2015-2016-cı illərdə artımla müşahidə edilmişdir. Bütün bunlar aşağıdakı cədvəl məlumatlarında ilk onluğa daxil olan ölkələrin otellərində bir otağa düşən gəlirin artımını ifadə edən göstəricilərində öz əksini tapmışdır.



**Cədvəl 3.**

**Memanaxanalarda otaq başına əldə edilən gəlirin artımınadkı dəyişikliklər**

| 2015 | 2016 | 2017 |
|---|---|---|
| London (82,1%) | London (82,9%) | London (83,5%) |
| Dublin (82,1%) | Dublin (82,1%) | Edinburg (82,5%) |
| Edinburg(82,4%) | Edinburg(81,8%) | Dublin (82,4%) |
| Amstredam(78,1%) | Amstredam(78,4%) | Amstredam(78,2%) |
| Paris (76,4%) | Roma(77,8%) | Paris (77,8%) |
| Berlin(76,4%) | Berlin(77,1%) | Berlin(77,5%) |
| Barselona(75,3%) | Paris (76,6%) | Türkiyə (77,2%) |
| Antalya(72,1%) | Praqa(76,5%) | Barselona (76,3%) |
| Lissabon(73,5%) | Barselona (75,4%) | Lissabon (76,2%) |
| Prag(73,4%) | Lissabon (74,6%) | Vyana (73,6%) |

Mənbə: Pwc, Staying Power European Cities Hotel Forecast for 2016 and 2017, March 2016: 24.
Source: Pwc, Staying Power European Cities Hotel Forecast for 2016 and 2017, March 2016.

Cədvəldən göründüyü kimi 2016-2017-ci illərdə Avropada ön plana çıxan bəzi şəhərlərdə otellərdə bir otağa düşən gəlirin həcmində artımlar müşahidə edilmişdir. Əgər ayrı-ayrı şəhərlərə nəzər salsaq görərik ki, Amstredam 2015-ci ildən başlayaraq sonrakı illərdə otellərdə otaq başına düşən gəlirin artması otaqların doluluq səviyyəsinin artmasına uyğun olaraq yüksəlmişdir. Otellərdə otaqların orta doluluq səviyyəsi həmin illərdə 78% civarında olmuşdir. Burada 180 fərqli milliyyətə mənsub olan insanlar turizm xidmətlərindən istifadə etmişdir ki, bu da beynəlxal turizmin tələblərinin ödənilməsinin yüksək səviyyədə olması deməkdir. 2015-ci ildə otel otaqlarına olan tələb 6,7% artımla müşahidə edilmiş və bu artım sonrakı illərdə də davam etmişdir. 2015-ci ildə xidmətə 30000 otaq çıxarılsa da 2016-cı ildə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

4000 otaq da istifadəyə verilmiş və əlavə olaraq 7000 otagın istifadəyə verilməsi planlaşdırılmışdır. Turizm sektorunda Amstredamın sahib olduğu nailiyyətlər burada mədəniyyət mərkəzlərinin sayının çox olması, muzeylər, UNESGO dünya mirasının olması, ölkənin populyarlığı, müxtəlif tans yarışmaları və Avropa Birliyi Konqresinə ev sahibliyi etməsi ilə əlaqədar qiymətləndirilə bilər. 2016-2017-ci illər üzrə Barselona bütünlükdə toplantı və konfranslarla ön plana çıxmaqla bərabər, Türkiyənin də iştirak etdiyi və rəqabət halında olduğu bəzi Ağdəniz ölkələrinin yaşadığı siyasi, iqtisadi və terrorla bağlı sıxıntılar üzündən turizm sektorunda inkişafın bir qədər ləngiməsi müşahidə edilmişdir. İspaniyanın ən böyük ikinci şəhəri olan Barselona son 5 ildə Avropada ən çox turist axını olan 5 şəhərdən biridir. Hal-hazırda burada 5000 otaqlıq otellərin tikintisinə sərmayələr qoyulmaqla otaq başına düşın gəlirin artırılması istiqamətində mühüm işlər görülür. Qeyd etmək lazımdır ki, 2016-cı ildə burada turizmin inkişaf imkanları EXPO təşkili,GSMA Mobil Dünya Konfransı, beynəlxalq Sarap Turizmi Konfransı və Avropa Birliyi Nükleer Tib Konfransının keçirilməsi ilə bağlıdır. Bir otağa düşən gəlirin artması Almaniyada-Berlində müşahidə edilmişdir. Otellərin doluluq səviyyəsi 2014-cü ildə 74,1% olmasına baxmayaraq, 2015-ci ildə 76,4% olmuşdur. Berlində əsasən turist axınları iş və tətil məqsədi ilə gələnlərin hesabına artmaqdadır. Ölkəyə tətil məqsədi ilə gələn turistlərin 55% yerli turistlər təşkil edir. Berlin Almaniyada turizm məqsədi ilə gələnlərin sayına görə üstün mövqe tutmaqla yanaşı, Avropada Londora və Parisdən sonra daha çox öndə olan 3 şəhərdən biridir. Burada turist gecələmələrinin 24% konfransa gələnlər təşkil edir. Berlində 2145 yeni otaq, daha sonra isə 1258 otel otağı inşa edilməkdədir. Gələcəkdə burada otell gecələmələrinin sayının 30 milyona çatdırılması nəzərdə tutulmuşdur.

Brüsseldə əsasən iş turizmi və həftə sonu turizminə görə tələbdurmadan artır. Lakin, 2016-cı ildə terrorla mücadilə nəticəsində otaq başına gəlirlərin 0,8% azalması ilə müşahidə edilmişdir. Bura da özəlliklə Avropada strateji baxımdan toplantılar üçün dünyada ən çox tələbat olan çəhərlərin siyahısındadır. Burada eyni zamanda fərqli beynəlxal qruluşa malik olan Avropa Birliyi və NATO-ya ev sahibliyi etməklə otel gəlirlərini artırabilirlər. 2015-ci ildə burada 53% iş məqsədi ilə 6,6 milyon otel gecələməsi olmuşdur. Brüsseldə bütünlükdə 205 otel və 19250 otaq qabiliyyəti vardır. Hal-hazırda isə otellərdə 2020-ci ilədək 10 milyon gecələmə hədəfi proqnozlaşdırılmışdır. İrlandiya ölkəsi baxımından kapital və iqtisadiyyatın mərkəzi durumunda olan Dublinin2016-2017-ci illərdə turizm sənayesi inkişaf etmişdir. İrlandiya əhalisinin 40%- Dublində cəmlənmişdir. Google, Linkedin ve Facebookun merkezleri də buradadır. Hər il orta hesabla 4 milyon civarında xarici turistlər buraya gəlir. Dublində otellərin sayı 155 olmaqla sabit qalmışdır. Bu otellərdə olan otaq sayı hal-hazırda 18900 olmaqla İrlandiya otellərinin üçdə birini təşkil edir. Mütəxəssislərin hesablamalarına görə 3-5 ildə 5000 yeni otaqların hazırlanmasına tələb olacağı müəyyən edilmişdir.

**Türkiyyədə turizmin müasir inkişaf səviyyəsi**

Turizm bütün dünyada olduğu kimi Türkiyədə də surətlə inkişaf edən bir sənaye sahəsi olmaqla öz inkişafını qorumaqdadır. Əgər Türkiyənin Mədəniyyət və Turizm Təşkilatının məlumatlarına nəzər salsaq son 25 ildə turizmin inkişafının hansı nöqtələrə gəldiyini görərik. Turizm sənayesinin başladığı 1990-cı illərdə ölkə ərazisinə turust məqsədləri ilə gələn ziyarətçilərin sayı 5,3 milyon olduğu halda, 2000-ci illərdə bu rəqəm 10 milyonu keçmişdir. 2010-cu illərdə isə ölkəyə gələn turistlərin sayının 30 milyonu keçməsi turizm üzrə Türkiyə dünya miqyasında önəmli yer əldə etməsinə səbəb olmuşdur. Son dövrlərdə Türkiyə turistlərə görə dünya ölkələri üzrə ilk onluğa daxil olan ölkələrin kateqoriyasında 6-cı sırada qərarlaşmışdır. Turizm sektoru üzrə Türkiyənin inkişaf göstəricilərinin davam etməsi və alternativ turizm mənbələrinin inkişafı proqnozlara görə gələcəkdə 2020-ci illərdə turistlərin sayı üzrə ilk 5 ölkə arasında olacaqdır. Türkiyə Cumhuriyətinin 100 illiyində 2023-ci ilin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

hədəfləri 50 milyon turist, 50 milyard ABŞ dolları turizm gəlirinə nail olmaqdır. Avropa, Asiya və Afrika kimi üç qitənin tam ortasında yerləşməyə sahib olan Türkiyə 5 saatlıq uçuş məsafəsi ilə bu ölkələrə turizmin inkişafında coğrafi baxımından da üstün mövqeyə malikdir. Türkiyədə yeni hava limanının açılması və iqtisadiyyatın digər sektorlarına qoyulmuş investisiyaların artırılması öz rəqibləri ilə müqayisədə turist axınlarının sayının artmasına şərait yaratmışdır. 2016-cı il Türkiyədə turist axının azalması ilə nəticələnsə də Rusiya ilə münasibətlərin bərpa edilməsi sonrakı illərdə turizm sektorunda turistlərin sayının artması və daha çox turizm gəlirlərinin əldə edilməsi ilə nəticələnəcəyi gözləniləndir. Türkiyə Respublikası üçün turizm sektoru bazarında Rusiya Federasiyası önəmli yer tutur. 2014-cü ilin sonlarından iqtisadiyyatda baç verən ləngimələr, həmçinin 2015-ci ilin noyabr ayında Türkiyə ərazisində Rusiyaya məxsus təyarənin vurulması Rusiyadan gələn turistlərin sayının 90%-dən çox azlması Türkiyə turizm sektorunun inkişafına mənfi təsir göstərərək mehmanaxana və mehmanxana tipli müəssisələrin iş və xidmətlərinin azlmasına səbəb olmuşdur. Əsasən Antalya və İstanbulda daha çox hiss olunan bu çatışmazlıq digər bazarlara da təsir edərək 2016-cı ildə Türk turizm sektorunda önəmli azalmalara səbəb olmuşdur. Bütün bunlar Rusiya ilə iş birliyi olan iqtisadiyyatın digər sektorlarına mənfi təsir etmişdir. 2016-cı ilin 1-ci yarımilliyində MDB ölkələrindən gələn turistlərin sayında 52% azalma olmuşdur. Rusiya Federasiyasında isə bu rəqəm 93%-ə çatmışdır. Qeyd etmək lazımdır ki, Rusiya Federasiyasının qoyduğı ciddi qadağalar təkcə Rus turistlərinin deyil, eyni zamanda Rusiya ilə işgüzar münasibətdə olan bütün bazarları, o cümlədən səyahət agentləri, onlayn bazarlamaları, hava nəqliyyatı kimi sektorların əsas elementləri bütün bu səbəbdən azalma ilə nəticələnmişdir. 2014-cü ilin 6 ayında Rusiya Federasiyasından gələn turistlərin sayı 805291nəfər, 2015-ci iln həmin dövründə 652703 nəfər, 2016-cı iln 6 ayında isə 45657 nəfər olmuşdur. Lakin, sonradan aparılmış uğurlu siyasət nəticəsində 2016-cı iln avqust ayında Rusiya-Türkiyə münasibətlərində anlaşmalara nail olunması nəticəsində sentyabr ayından etibarən Rusiyadan Türkiyəyə turist axınlarının sayının artmasında canlanma olmuş və orta hesabla 300000-ə qdər turistlrin gəlməsinə nail olunsada, neftin qiymtinin dünya bazarında ucuzlaşması, dünyanı bürüyən qlobal maliyyə böhranları hesabına Rusiyanın neft qiymətlərinin aşağı düşməsi turist sayında ciddi irəliləyişlərin əldə edilməsinə mənfi təsir etmişdir.



**Nətcə**

Türkiyədə turizm xidmətlərində otellərinin təsərrüfat fəaliyyətinin əsas göstəriciləri və onların yaxşılaşdırılmasında beynəlxalq iqtisadi münasibətlərin yüksəldilməsi xüsusi əhəmiyyət kəsb edir. Dünya ölkələrində və Türkiyə Respublikasında otellərdə otaq başına düşən gəlirin səviyyəsinin dəyişməsinə, ümumi bölgələr və qitələr üzrə otellərdə otaq doluluqlarının artmasına şərait yaradır. Coğrafi baxımdan Avropa, Asiya və Afrika kimi üç qitənin tam ortasında yerləşməyə sahib olan Türkiyəüçün ölkəyə gələn turistlərin sayında Rusiya Federasiyası qabaqcıl yer tutduğundan digər ölkələrlə bərabər Rusiya ilə iqtisadi və siyasi əməkdaşlığın inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edəcəkdir. Turizmdə ilk onluğa daxil olan ölkələrin otaq gəlirlərinin artması iqtisadi əməkdaşlığın güclənməsi hesabına əldə edildiyindən, Türkiyədə mehmanxanaların turizm sahəsinin səmərəliliyin yüksəldilməsi məqsədi ilə beynəxalq iqtisadi əməkdaşlıq dünya ölkələri üzrə genişləndirilməlidir. Bu baxımdan beynəlxalq tədbirlərin keçirilməsinin təmin edilməsi və otellərin rəqabətqabiliyyətinin yüksəldilməsi busektorun inkişafını daha da sürətləndirəcəkdir.

.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

## Ədəbiyyat

1.Türkiye İstatistik Kurumu 2016.
2. UNWTO World Tourism Barometer, Mayıs 2016, 14: 1
3. Hacıyev Ş., Bayramov Ə. Beynəlxalq iqtisadiyyat. Bakı- 2005, səh.561
4.Boros, K.(2015). "EU Tourism Policy Priorities", Destination Europe Summit, 1-7
4 European Travel Commission (ETC) .(2015). "The Chinese Traveler Brochure": 1-6
5. World Economic Forum .(2015). "The Travel & Tourism Competitiveness Report 2015 Growing Through Shocks": 1-11
6. UNWTO World Tourism Barometer (2015)
7. WTTC .(2015). "Travel & Tourism Economic Impact 2015 Germany": 1-18
8.Pwc, Staying Power European Cities Hotel Forecast for 2016 and 2017, March 2016.
9.STR Global: ErişimTarihi: 01.07.2016
10.http://theoslotimes.com/article/international-tourism-hits-record-1.2-billion-in-2015%3A-report:Erişim tarihi:20.01.2016

***М.А.Йлдызсафер***

***Роль международного экономического сотрудничества в повышении эффективности туризма и отельных отраслей Турции***

***Резюме***

*В статье были рассмотрены основные показатели хозяйственной деятельности гостиниц в туристских услугах в Турции и значение повышения международных экономических отношений на пути их улучшения. Согласно статистическим данным, в отелях в странах мира и Турецкой Республике был проведен анализ уровня доходов за номер, в отелях по всем регионам и континентам за период 2012-2016 годов были исследованы цены на номера. Кроме того, были проанализированы комнатные доходы стран, входящих в первую десятку в туризме, и оценена роль интернационального экономического сотрудничества в повышении эффективности сферы туризма гостиниц в Турции.*

***Ключевые слова:*** *доход, сотрудничество, эффективность, отель, туризм, промышленность, финансы.*

***M.A.Yildizsafer***

***The role of international economic cooperation in improving the efficiency of tourism and hotel industries in Turkey***

***Summary***

*The article emphasizes the importance of improving international economic relations on the main indicators of tourist services in hotels and their improvement in Turkey, and, according to statistics, the level of income in a room in hotels of the world and in the Republic of Turkey was analyzed, and in the periods covered by 2012-2016 The room was studied in continental hotels. In addition, revenues from rooms in a dozen countries were analyzed, and the role of international economic cooperation in the tourism sector in Turkey was evaluated.*

***Keywords:*** *income, cooperation, efficiency, hotel, tourism, industry, finance.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 13.12.2019.***
***Çapa qəbul olunub: 16.12.2019.***

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az